# İdman xəbərləri

## «Qəbələ»nin boksçuları iki qızıl medal qazanıblar



“Qəbələ” İdman Klubunun boksçuları beynəlxalq arenada növbəti uğurlarına imza atıblar. Ukraynanın Odessa şəhərində yeniyetmələr arasında keçirilən IV beynəlxalq turnirdə iki boksçumuz, Arif Bayramov 46 kq, Amil Musayev 57 kq çəki dərəcəsində qüvvələrini sınayıblar. Hər iki idmançımız bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. “Qəbələ”nin çalışdırıcısı Ramiz Mirkamalov turnirin ən yaxşı məşqçisi adına layiq görülüb.

## Çempionluq kəmərinə sahib olub

“Qəbələ” İdman Klubunun MMA döyüşçüsü Nəriman Abbasov növbəti dəfə “Fight Night Global” təşkilatının çempionu adına yiyələnib. Moskvadakı "Mıtişi Arena"da keçirilən turnirdə idmançımız titul döyüşündə digər iddiaçı- Qazaxıstan təmsilçisi Kuat Hamitovla üz-üzə gəlib. Gərgin keçən 5 raundluq döyüşdə Nəriman qalib gəlib. Bu qələbə idmançımıza çempionluq kəmərini qazandırıb.




Xatırladaq ki, peşəkarlar arasında 27-ci döyüşünü keçirən idmançımız 24-cü qələbəsini qazanıb.

# Şəfalı bitkilər

## Bibəriyə

Bibəriyə bitgisi 15 əsrdən çoxdur ki, xalq təbabətində bir çox xəstəliklərin profilaktikası və müalicəsində uğurla istifadə olunur.

Bibəriyə revmatizimdən digər iltihabi xəstəliklərdən əziyyət çəkənlər üçün çox faydalıdır. Gülü immunitet artırıcıdır. Əsəbləri sakitləşdirir. Yuxusuzluq problemi olanlara bibəriyə dəmləməsi rahatlıq və sakitlik gətirir.

Dəri səpmələrinin, qaşınlanmaların və sair aradan götürülməsi üçün bibəriyə dəmləməsində isladılmış pamqıdan istifadə edirlər.

Bibəriyə saç tökülməsini azaldır, dəmləməsi saç köklərini möhkəmləndirir, kəpəklənmənin qarşısını alır.

Təzə bibəriyəni yığıb üstünə zeytun yağı tökür, isti bir yerdə (günəş altında yox) 10 gün saxladıqdan sonra revmatizm oynaq qulunc ağrıları zamanı bu qarışıqla masaj etməklə ağrıların qarşısını almaq mümkündür.



Bibəriyə dəmləməsi vasitəsilə ağız boşluğunun qarqara etmək və ya bitki yarpaqlarını çeynəməklə ağız qoxusundan qurtulmaq olar.

Mədə bağırsaq yarasında, helikobaktarı, pilori bakteriyası varsa çayının içilməsi çox faydalıdır. Bibəriyə çox yüngül işlədicidir, mədə və bağırsağın hərəkətini artırır, bununla da köpü götürür.

Bibəriyə həzmin tezləşməsi üçün xeyirlidir. Böyrək ağrılarında, soyuqdəymələrdə və ödəmlərdə (su yığılması) bibəriyə çayının içilməsi faydalıdır. Sidikqovucu təsiri var.

Arıqlamaq istəyənlər bibəriyə çayı vasitəsilə arzularına qovuşa bilərlər.

Qeyd edək ki, hamilə və südəmər körpələri olan qadınların bibəriyədən isitfadəsi məsləhət bilinmir.

Bibəriyəni ev və həyət şəraitində əkib becərmək mümkündür. İstiyə və soyuğa davamlıdır. 40 dərəcəyədək istidə, 20 dərəcəyədək soyuqda öz yaşıllığını və gözəlliyini itirmir.

# Dünyanın ikinci ən böyük almazı



Botsvanada dünyanın ən böyük “Ümid almazı”ndan sonra karatına görə ikinci “Okavango Blue” almazı nümayiş etdirilib. Almaz ölkənin Qaborone şəhərindəki dövlətə məxsus Okavanqo Almaz Şirkətində təqdim olunub. Ölçüsü 41.11 karat olan bu nadir daş ölkənin mədənlərində indiyədək tapılan ən qiymətli almazdır.

Ekspertlər bildirirlər ki, Hindistanda tapılmış və hazırda Vaşinqtondakı Milli Təbiətşünaslıq Muzeyində nümayiş etdirilən 45,52 karatlıq “Ümid almazı” kimi, bu almaz da “mavi daş” tipindədir. “Okavango Blue” nun ondan üstünlüyü isə daha şəffaf olmasıdır. O, Amerika Gemologikal İnstitutu tərəfindən ən parlaq və təmiz almaz kimi qiymətləndirilib. Yeni almazın rəngləri insanı valeh etməklə yanaşı, o birilərindən öz çalarları ilə fərqlənir.

# Əyləncə saatlarında

Kriptoqramda1-dən 31-ə qədər olan tək ədədləri boş xanalara təkrar etmədən elə yerləşdirin ki, soldan sağa, yuxarıdan aşağıya, eləcə də diaqonallar üzrə ədədlərin cəmi 64 olsun.

| | | | |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

# Bunları bilmək maraqlıdır

- Sənə bircə dəfə gərək olan silahı ömrün boyu gəzdirməlisən.
- Az da olsa öz ağlın olsun.
- Ağac xəncər nə qədər qəşəng olsa da, onunla cücə başı da kəsə bilməzsən.
- Heç zaman qartala saman, uzunqulağa ət verməyin.
- Fərasətli adamın əlində ilan zəhəri də gərəklidir, axmaq adamın əlində bal da qorxuludur.
- Hələ ovlamadığın quş üçün qazan asma.
- Uşağı qamçı ilə yox, utandırmaqla cəzalandırarlar.
- Erkək quşun yuvası olmaz.
- Qızını döyməyən dizini döyər.
- Öz çörəyini özgə süfrəsində yemə.

**Toplayan: Mirhəsən AĞAYEV, Mirzəbəyli kəndi.**


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2019-cu ilin ikinci yarısı üçün abunə yazılışına başlanmışdır

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


# İtmişdir

Qəbələ Dövlət Notariat Kontorunun 23 yanvar 2006-cı il tarixli 4Ə-02/334 nömrəli alqı-satqı müqaviləsi ilə Qaradeyin kənd sakini **Yusifov Valeh Süleyman oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 507 nömrəli (kod 40610028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası DƏDRX-nin Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən Vəndam qəsəbə sakini **Ədilova Qənimət Əziz qızına və ailə üzvlərinə** 02 sentyabr 2008-ci il tarixdə verilmiş MH seriyalı 0008960 nömrəli (reyestr nömrəsi 406013005306, qeydiyyat nömrəsi 190804999) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı iləTüntül kənd sakini **Eyyubov Dursun Məmət oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 240 A nömrəli (kod 40616018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Bum qəsəbə (əvvəlki kənd) sakini **Alcanov Rustəm Səid oğluna** verilmiş JN seriyalı 386 F nömrəli (kod 40600038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyinə görə etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 07 noyabr 1997-ci il tarixli 19 saylı qərarı ilə Böyük Əmili kənd sakini **Allahverdiyev Söhbət Allahverdi oğluna** verilmiş JN seriyalı 199 nömrəli (kod 40604028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56



Redaktor
Varis Yaqubov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1780